# jurnalistlərin xatirələrində

dəyişikliklər yaradır, jurnalistika peşəsinə bağlılığı artırırdı. Təbii ki, hələ gənc yaşlarımızda biz Şirməmməd müəllimi prinsipal bir dekan, olduqca məntiqli danışığa malik bir müəllim kimi tanıyırdıqsa zaman keçəndən sonra başa düşdük ki, Şirməmməd müəllim Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabidən sonra mətbuatımızın tarixində ən yüksək mərtəbəyə ucalan ikinci bir dahi ustadımız imiş. Şirməmməd müəllimin Azərbaycan Xalq Cümhuriyyətinin, mətbuat tariximizin cəfakeş və yorulmaz tədqiqatçısı kimi gördüyü işlər ölçüyəgəlməz fədakarlığın bir nümunəsidir.

BDU-nun 100 illik yubiley tədbirində BDU tarixində qalan professor-müəllim heyətinin şəkilləri içərisində əziz müəllimimiz Şirməmməd Hüseynovun şəklini görmək də bizim üçün qürurverici idi. O, tələbələr üçün sadəcə bir müəllim deyildi, tələbələrin böyük hamisi, savadlı tələbənin yol göstərən mayakı, haqq-ədalət mücəssəməsi idi. Universiteti bitirməyimizdən 40 il keçməsinə baxmayaraq biz onu daim xatırlayır, fürsət düşdükcə onunla görüşür, müdrik yaşındakı odlu-alovlu çıxışlarını, müsahibələrini nəfəs dərmədən dinləyirdik. Çünki, Şirməmməd müəllim hər dəfə yeni bir söz deyir, yeni fikirlər söyləyir, öz dedikləri ilə də jurnalistikamıza yeni nəfəs, yeni ab-hava gətirirdi.

Şirməmməd müəllim Azərbaycançılıq ideologiyasının alovlu tədqiqatçısı idi. O, bizim milli ruhda, ləyaqətli jurnalist kimi yetişməmizdə, tələbələrdə milli təəssübkeşlik, azadfikirlilik, yaradıcılıqda obyektivlik kimi keyfiyyətlərin formalaşmasında əvəzsiz rol oynayıb.

O, Cümhuriyyətimizin qurucularının fəaliyyətini məqalələrində, monoqrafiyalarında yorulmadan tədqiq edirdi. Nə yaxşı ki, Xalq Cümhuriyyətinin 100 illiyini görmək ona nəsib oldu. Şirməmməd müəllim cismən bu gün aramızda olmasa da ruhən hər zaman bizimlədir. O, əbədiyyətə qovuşdu. Şirməmməd müəllimin yeri jurnalistikamızda və tariximizdə həmişə görünəcək.

**İbrahim İbrahimov,**
**"Zaqatala" qəzetinin redaktoru,**
**Əməkdar Mədəniyyət İşçisi**
**Elmira Mehdiyeva,**
**"Zaqatala" qəzetinin redaktor müavini,**
**Əməkdar Mədəniyyət İşçisi**

## ŞİRMƏMMƏD MÜƏLLİMİ XATIRLARKƏN ...

...Qələmi əlimə götürüb fikirləşirəm. Hardan, nədən başlayım? Düşünürəm, Şirməmməd Hüseynov haqqında nə yazmaq olar ki, ona layiq olsun. Nəhəng insan haqqında yazını oxuyandan sonra onu tanımayanlar biz tələbələr üçün doğma saydığımız əziz müəllimimizin necə bir şəxsiyyət olduğunu açıq-aydın görə bilsinlər.

Şirməmməd müəllim haqqında, onun mətbuat tariximizdə xidmətləri barədə çox yazırlar. Qərara gəldim ki, bu mövzuya toxunmayım. Odur ki, yaddaşıma ilişib qalan bir xatirəni qələmə almaq qərarına gəldim. Diqqətli oxucu üçün bu xatirədə hər şey var. Müəllim şəxsiyyəti də, tələbəyə məhəbbət də, orta məktəb partasından yenicə ayrılıb gələn, gələcəyə böyük ümidlərlə baxan gənclərə inam da...

Şirməmməd müəllim bizə mətbuat tarixindən dərs deyirdi. Onun oxuduğu mühazirələrə qulaq asmaqdan doymazdıq. Elə maraqla danışırdı ki, elə maraqlı söhbətlər edirdi ki, dinləməkdən həzz alırdıq. Gizlətmirəm, Şirməmməd müəllim xaraktercə ciddi adam idi və ondan əməlli-başlı çəkinirdik.

Nə isə, semestrin sonu gəldi və biz mətbuat tarixindən yoxlama verəsi olduq. Şirməmməd müəllim həmişəki qaydada ağır addımlarla auditoriyaya daxil oldu, üzünü biz tələbələrə tutub dedi: "Kim yoxlamaya hazırdısa əlini qaldırsın". Hamımızın ürəyi düşdü. Çünki, belə bir sualı heç bir müəllim bizə verməmişdi. Auditoriyaya sükut çökmüşdü. Şirməmməd müəllim sualı bir də təkrar elədi. Dönüb ətrafa baxdım. Hamı əlini qaldırmışdı. Və təbii ki, mən də əlimi qaldırdım. Amma, tələbələrin ürəyindən nə keçdiyini gözlərindən oxuyan, bu gün də bizə dərs deməsi ilə fəxr etdiyimiz Şirməmməd Hüseynov çoxlarının yalandan əlini qaldırmasını hiss etdi. Və məhz buna görə universitetdə baş vermiş bir hadisəni söylədi. Söylədi ki, universitetin hansısa kafedra müdirlərindən biri kəsilən, göndəriş alan tələbələrdən təkrar imtahanı özü götürərmiş. Tələbə bilet çəkəndən sonra onu otaqda tək qoyan professor düşüb aşağı mərtəbədə yerləşən yeməkxanada çay içərmiş. Bu fürsəti əldən verməyən tələbə isə rahatca kitabdan köçürər və müəllimə cavab verərmiş. Tələbənin gözəl cavabını eşidən professor təəccüblənər və deyərmiş: Mənim müəllimlərim nə qədər vicdansızdılar, heç belə tələbəni də kəsmək olar?: Ölən günə qədər həmin kafedra müdirini inandıra bilməyiblər ki, sən aşağı yeməkxanaya düşəndə tələbə kitabdan köçürür. Belə deyənlərə professorun bir cavabı var imiş. Deyərmiş: "Mən inanmıram ki, tələbələrim məni aldatsınlar".

Bu əhvalatı danışan Şirməmməd müəllim üzünü bizə tutub: "cəsarətinizdən xoşum gəldi" , - dedi, " Mən də bu gün inanmaq istəmirəm ki, siz məni aldadırsınız. Odur ki, yoxlama kitabçasını verin, hamınıza soruşmamış qiymət yazacam".

Bu da müəllim kimi professional olan Şirməmməd Hüseynovun böyüklüyü, ucalığı. Aradan illər keçib. Xeyli yaşlaşmışıq. Amma, o, bizim gözümüzdə, yaddaşımızda bax belə qalıb...

**İlqar Həsənov,**
**Bakı Dövlət Universiteti Jurnalistika fakultəsinin 1981-ci il məzunu**

## NƏSİLLƏRƏ ÖRNƏK BİR MÜƏLLİM HAQQINDA SÖZ

Yaşasaydı ömrünün 95 -ci qışında olardı Şirməmməd Hüseynov. Bütöv bir ömür yolu olan böyük Azərbaycan mütəfəkkiri, Azərbaycanın yeni dövr jurnalistikasının parlaq siması. Bu ömür yolunda elə bir an, elə bir gün yoxdur ki, O, gördüyü işin, etdiyi əməlin qarşısında hesabatlı olmasın. Xalqının, millətinin, dövlətinin qarşısında başını dik tutan, məfkurəçi bir şəxsiyyət. Əsl Azərbaycan kişisi. O, Cumhuriyyət irsini, xalq azadlıq mücadiləsi dövrünü, jurnalistika tarixini, istiqlal mübarizlərinin ictimai-siyasi görüşlərini, milli məfkurəni dərindən araşdıran bir alim, bir pedaqoq idi. Azərbaycan ictimai fikir tarixində xüsusi yeri olan Şirməmməd müəllimin müasir dövrün milli məfkurəsinin formalaşması üçün bəyan etdiyi fikirlər, araşdırmalar və zəngin ömür yolu illər uzunu müstəqilllik tariximizin şanlı səhifəsinə yazılacaq. O, "cümhuriyyətçilərlə oturub durmaqdan" usanmayan, onların həyat fəaliyyətini araşdırmaqdan yorulmayan bir tarixçi jurnalist idi. Təkcə millət, xalq, bəşər haqda söylədiyi fəlsəfi fikirlər, geniş elmi təhlillərin, araşdırmaların aparılması üçün bir ip ucudur, başlanğıcdır. Onun yaradıcılıq fəlsəfəsinin qayəsində Azərbaycan xalqının varlığını, onun dünya xalqları arasındakı mövqeyini səciyyələndirən cəhətlər dayanır. Xalqımızın harda bir ağrı-acısı oldusa, orda onun yarasına məlhəm olan bir Şirməmməd Hüseynovu gördük. O, xalqın maarifpərvər ziyalısı, ədalətsizliyə qarşı barışmaz bir haqq adamı idi. Tale elə gətirdi ki, onunla ömrünün son illərində sıx-sıx ünsiyyətdə oldum. Bakı Dövlət Universitetinin jurnalistika fakultəsində keçirilən sonuncu yubileyində də iştirak etdim. Onun milli məfkurə, vətənpərvərlik, azərbaycançılıq mövzusunda çıxışı, müqayisəli təhlili nəsillərə bir örnəkdir. Şirməmməd Hüseynov yaşamaq, çalışmaq, yaratmaq və həyat eşqi bitib tükənməyən bir insan idi. Sözünün dürüstlüyü, milli xarakteri, mütəfəkkir düşüncəsi onun yaradıcılığının qayəsini təşkil edir. Bu böyük ziyalı ilə münasibətlərimin qurulmasında, Şirməmməd Hüseynovun şagirdi, jurnalistikamızın böyük müəllimi, yaradıcılığı ilə qürurlandığımız, Cahangir müəllim Məmmədliyə minnətdaram. Bu gün minlərlə insan onun jurnalistika fakultəsində dərs dediyi auditoriyasında olmadan belə Şirməmməd Hüseynovu özünə müəllim hesab edir, ustad bilir. Mən də onlardan biriyəm. O, həm də mənim ustadımdır.

**Umud Mirzəyev,**
**Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti**

## JURNALİSTİKAMIZIN ŞİRMƏMMƏD HÜSEYNOV DƏRSLƏRİ

Ömrnün 95-ci ilində yurd sevgisini və jurnalistika sahəsində qiymətli irsini tələbələrinə və ardıcıllarına əmanət edərək Haqq dünyasına qovuşan professor, məfkurə ustadı Şirməmməd Hüseynovun adı professional jurnalistikamızın ən dəyərli və nüfuzlu xadimlərinin sırasında həmişəlik yer aldı.

Şirməmməd müəllim Yaradanın ona bəxş etdiyi sağlam ruh və saf imanla, Əcdadlarından gəlmə sabit və təmiz kimliklə, Həyatda qazandığı faydalı bilik və bacarıqla yalnız göründüyü kimi oldu, axıradək də olduğu kimi göründü. Düz 80 il davam etmiş ictimai-məfkurəvi bir bioqrafiya göstərir ki, Şirməmməd müəllim dünyaya təhsili və jurnalistikanı, müəllimliyi və jurnalistliyi bənzərsiz bir ahəngdarlıqla qovuşdurmaq missiyasını ləyaqət və çalışqanlıqla yerinə yetirmək üçün gəlibmiş.

Milli jurnalistikamızın xəlqi özəlliyi və məfkurə mübarizəsi fonunda professor Şirməmməd Hüseynovun tale yolu işıqlı, mənalı və cazibəli bir örnək biçimində seçilir. Anadilli jurnalistikmız aşağıdan-xalqın ictimai düşüncə tələbatını cavablandırmaq zərurətindən qaynaqlandığı kimi, Şirməmməd Hüseynovun müəllim-jurnalist taleyi də məhz jurnalistikamızın əzəli milli idealını yaşatmaq və kama çatdırmaq ehtiyacı ilə yönlənmişdir. Böyük Həsən bəy Zərdabi kimi, ustadımız Şirməmməd Hüseynov da jurnalistika aləminə müəllimlikdən-xalqa gərək olan bilik və bacarıqları daha böyük auditoriya olan mətbuat vasitəsilə çoxluğun duyğu-düşüncələrə çatdırmaq amalı ilə gəlmişdir.

Professor Şirməmməd Hüseynovun 1 əsrə yaxın mınalı ömrünün, ali junalistika təhsili və aspirantlıq illərini də götürsək, 75 ili professional jurnalistikamızın ən yaxşı ənənələrinin yaşadılıb-zənginləşdirilməsi ilə bağlı olmuşdur. O, milli jurnalistikamızın son iki epoxasında– kommunist jurnalistikası daxilində milli təmayülün qorunub saxlanmasına və müstəqillik ərəfəsindən başlayaraq ömrünün sonunadək demokratik mətbuatın əsaslarının dirçəldilib möhkəmləndirilməsinə bacardığı qədər kömək etmiş və təkan vermişdir.

Bütün bunlar Şirməmməd Hüseynovun xalqın böyük kişilərinin yolu ilə gedərək cəmiyyətdə formalaşdırdığı və birmənalı qəbul edilən şəxsi-ictimai kimliyinin ümumi görüntüləridir. Bəs onun minlərlə yetirmələrindən, milyonlarla heyranlarından və sayı daim artan davamçılarından biri olaraq nə demək olar?

1977-cı ilin sentyabrında Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə qədəm basan I kurs tələbəsi kimi mənim və qrup yoldaşlarımın bu divarlar arasında ilk ciddi bilgilərimizdən biri burada Şirməmməd Hüseynov kimi "öz prinsipləri olan", "tələbənin savadsızlığına və avaralığına dözməyən", "ədalətsizliyi, saxtakarlığı, əyintiləri qəbul etməyən", "düzlüyü və doğrunu sevən", "bilik-bacarığı olan, çalışqan köməksizə arxa-dayaq oan", "heç kəsin yanında gözükölgəli olmayan", "yuxarıların konyuktur xahişlər etməyə çəkindiyi" bir müəllim barədə yuxarı kurs tələbələrinin yaratdığı əfsanələrlə və bu "səddi" aşa bilməyin heç də asan olmadığı barədə xəbərdarlıqlarla çevrələnmişdi.

Tezliklə görmüşdük ki, yaxşı tələbə Şirməmməd müəllimin gözünün işığıdır. O da məlum olmuşdu "çətin" müəllim istedadlı və yurdsevər gəngliyi öz balası qədər istəyir və qoruyur. Çox keçməmişdi yəqin etmişdik ki, cəmiyyətdə və ziyalılıqda gedən aşınmalarla davamlı savaşda olmuş Şirməmməd müəllim, heç olmasa, vəzifə və söz sahibi olduğu jurnalistika sahəsində yaxşının pisin ayağına verilməsinin qarşısını almaq istəyir. O nüfuzlu jurnalist ixtisasının çox gərəkili diplomunun kiminsə himayə etdiyi başgirləyənə, bir cümləni doğru yaza bilməyən kəmsavada, sabahın yaramaz karyeristinə verilməsini Azərbaycanın gələcəyinə xəyanət səviyyəsində qiymətləndirirdi.

Şirməmməd müəllim bizə yuxarı kurslarda dərs deməşdi. Biz onda görmüşdük ki, əsl müəllim nəyi və necə öyrədər. Onun dərslərinin bir adı var idi: jurnalistə həyatda və fəaliyyətdə lazım olan faydalı və əməli bilik. Onun jurnalist üçün bir başlıca tələbi var idi: düzü öyrənmək, doğrunu yazmaq. Onun bir hədəfi var idi: tələbələri yalan pərdələrinin arxasındakı həqiqətlərdən xəbərdar etməklə gözüaçıq yetişdirmək. Onun bir öyüdü var idi: istəyə çatmaq üçün iddiasız və təmənnasız olmaq. Bütün bunları o qədər məharət və şövqlə edirdi ki, tələbələr hamılıqla onun dərslərinə gəlir, hər dəfə də yuxudan ayılmış insanlar kimi ətrafa daha ayıq və fərqli nəzərlərlə baxırdılar. Onun növbəti dərsini buraxamaq ən qiymətli kitabın bir neçə vərəqini ağ buraxmağa bərabər tutulurdu.

Şirməmməd müəllim o vaxt çiddi qaydaya çevrilmiş qaydanın--tələbəyə uzun ədəbiyyat siyahıları yazdırıb onları kitabxanalarda çürütməyin tam əleyhinə idi. O öz fənni ilə bağlı nə lazımsa tələbəyə elə çatdırırdı ki, asanlıqla hamının yaddaşına həkk olurdu. O deyirdi ki, savadsıq və bacarıqsız tələbə biliksiz və məsləksiz müəllimin məhsuludur. Bunun nəticəsidir ki, bizim qrupumuzda oxuyanların hamısı Şirməmməd müəllimin dərslərini bu gün də canlı və dramatik bir tamaşa kimi xatırlayır. Ən başlıcası isə biz o dərslərdən həmişə əsgər döyüşdə silahdan istidadə etdiyi kimi yararlanmışıq.

Sonralar anladıq ki, Şirməmməd müəllim bizi gələcəyə necə hazırlayırmış. Zaman gəldi ki, biz Şirməmməd müəllimin bu "gələcəyi" illər boyu qəlbində inamla yaşatdığının şahidi olduq. Bu o gələcək idi ki, "millətin kəsilmiş başı" öz yerinə qoyulmalı və bu işi görənlərin ilk sırasında millətsevər, azadlıqsevər jurnalistlər olmalı idilər. Meydan hərəkatı başlayanda biz artıq 6 il idi ki, fakültəni bitirib müxtəlif redaksiyalarda çalışırdıq. Şirməmməd müəllimlə harada görüşürdüksə, deyirdi ki, sizə dediyim "kəsilmiş başın bədənə birləşdirilməsi" vaxtı çatıb.

Müstəqillik illərində professor Şirməmməd Hüseynov demokratik mətbuatımızın sovet zamanı deyilə, yazıla bilməyən bir çox mətləblərini, nümunələrini işindən-davranışından razı qaldığı yetirmələrinin çalışdıqları qəzet-jurnallarda çap etdirdi. Bununla o, tələbələrinə vaxtilə verə bilmədiklərini də bu yolla onlara çatdırdı. Sonra bu yazılar bir neçə kitab şəklində çap olundu və geniş yayıldı...

...Bütün bunlar isə Şirməmməd Hüseynovun ayrıca bir kitabın mövzusu olan jurnalistika dərsləridir.

**Tahir AYDINOĞLU,**
**Əməkdar jurnalist,**
**"Həsən bəy Zərdabi" və "Ali media" mükafatçısı**